# Kənd təsərrüfatı işçilərinin peşə bayramı qeyd edilib

Noyabrın 1-də Qəbələdə kənd təsərrüfatı işçilərinin peşə bayramı qeyd olunub.



Əvvəlcə tədbir iştirakçıları tərəfindən ulu öndər Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri düzülüb, ümummilli liderin əziz xatirəsi dərin ehtiramla yad edilib.

Rayon kənd təsərrüfatı idarəsində keçirilən bayram tədbirində idarənin rəisi Rahib Əhmədov rayonda 2017-ci ildə kənd təsərrüfatı sahəsində görülən işlər, əldə olunan nailiyyətlər, kənd təsərrüfatı məhsulları istehsalçılarına edilən dövlət dəstəyi barədə geniş məruzə edib. Məruzəçi ölkə rəhbəri İlham Əliyevə aqrar sahənin inkişafına göstərdiyi hərtərəfli dəstəyə görə rayonun bütün kənd təsərrüfatı işçiləri adından minnətdarlığını bildirib.



Bayram tədbirində çıxış edən idarənin heyvandarlıq sektorunun müdiri Şamil Osmanov və bitkiçilik sektorunun müdiri Elmdar Şərifov rayon iqtisadiyyatının inkişafında aqrar sahənin əhəmiyyətindən danışıb və bayram münasibətilə bu sahədə fəaliyyət göstərən sahibkarları təbrik ediblər.

Yekunda bir qrup qabaqcıl kənd təsərrüfatı işçisinə idarənin pul mükafatları təqdim edilib.

Bayram tədbirinə qatılan Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov kənd təsərrüfatı işçilərini rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin adından peşə bayramı münasibətilə ilə təbrik edib.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Əhalinin məşğulluğunun təmin olunması mühüm sosial məsələdir

***Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmət Orqanının təsdiq etdiyi tədbirlər planına uyğun olaraq Qəbələ Rayon Məşğulluq Mərkəzi «Əmək bazarının sosial-iqtisadi***



***inkişaf templərinə və xüsusiyyətlərinə uyğunlaşma mexanizminin müasir səviyyədə qurulması» mövzusunda «dəyirmi masa» keçirmişdir. Tədbirə işəgötürən büdcə və özəl təşkilatların nümayəndələri dəvət olunmuşdu.***

Tədbiri giriş sözü ilə açan rayon məşğulluq mərkəzinin direktoru Elxan Səlimov bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında aparılan islahatlar, dövlət məşğulluq siyasətinin rolunun gücləndirilməsi istiqamətində atılmış addımlar öz müsbət nəticələrini verməklə yanaşı bizim və eyni zamanda işəgötürənlərin üzərinə böyük vəzifələr qoyur. Elxan Səlimov həmçinin qeyd etdi ki, əmək bazarının tənzimlənməsi, işsizlik problemlərinin həlli məşğulluq mərkəzi ilə işəgötürənlərin daha sıx əməkdaşlığını zəruri edir. Məşğulluq mərkəzinin müdiri işsizliyin azaldılması üçün özünüməşğullduq proqramlarının həyata keçirilməsinin səmərəliliyindən danışaraq bildirdi ki, 2017-ci ildə rayonda 16 nəfər işsizə özünüməşğulluğu təmin etmək üçün xeyli sayda iri və xırda buynuzlu mal-qara, kompüter dəsti və digər avdanlıqlar verilmişdir. Bu təcrübə yaxşı nəticə verdiyinə görə gələn il özünüməşğulluğa cəlb edilənlərin sayı 100 nəfərə çatdırılmışdır.

Rayon icra hakimiyyəti başçısının müavini, sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Arif Allahverdiyev çıxış edərək bildirdi ki, müstəqil, demokratik Azərbaycan Respublikasının qurucusu ümummilli lider Heydər Əliyevin böyük dövlətçilik irsini layiqincə davam etdirən Prezident cənab İlham Əliyevin rəhbərliyi altında aparılan məqsədyönlü dövlət məşğulluq siyasəti nəticəsində işsizlik səviyyəsi minimuma enmişdir. Arif Allahverdiyev eyni zamanda son illərdə rayon iqtisadiyyatının inkişaf istiqamətləri, aparılan tikinti quruculuq işləri, yaradılmış yeni iş yerləri barəsində geniş məlumat verdi. Dövlət məşğulluq siyasətinin uğurla yerinə yetirilməsi üçün məşğulluq mərkəzi ilə işəgötürənlərin sıx əməkdaşlığının vacib olduğunu qeyd edən natiq işəgötürənləri «Məşğulluq Haqqında» Azərbaycan Respublikası Qanununun və bu sahədə qəbul edilmiş digər normativ hüquqi aktların tələblərini yerinə yetirməyə çağırdı.

Tədbirdə çıxış edən işəgötürən nümayəndələri dövlətin sahibkarlığın inkişafına göstərdiyi köməklikdən danışaraq, məşğulluq siyasətinin uğurla həyata keçirilməsində üzərlərinə düşən vəzifələrə məsuliyyətlə yanaşacaqlarını bildirdilər.

Sonda tədbir iştirakçılarının mövzu ilə əlaqədar mülahizələri dinlənildi, sualları cavablandırıldı.

**«Qəbələ»**
**İlkin Vəlizadə (foto).**

# 17 Noyabr Milli Dirçəliş Günüdür

**1988**-ci il noyabrın 17-də xalq Bakı şəhərində Azadlıq meydanına axışmaqla 70 il Azərbaycanı əsarətdə saxlayan Sovet imperiyasının müstəmləkəçilik və xalqlar arasında ayrıseçkilik siyasətinə qarşı ilk kütləvi etiraz səsini qaldırdı.

Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində başlamış erməni separatizmini və terrorunu dəstəkləyən, ermənilərin respublikamıza qarşı torpaq iddialarına rəvac verən, xalqımızın hüquq və mənafelərini qorumayan bir rejimə qarşı kütləvi hərəkat məhz həmin gün başlandı. Azərbaycan xalqı bir yumruq kimi sıx birləşərək bütün dünyaya sübut etdi ki, o, azadlığı uğrunda, ərazisinin bütövlüyü uğrunda hər cür fədakarlıq göstərməyə qadir olan xalqdır.

Ərazi bütövlüyünə edilən qəsdlərlə razılaşmayan Azərbaycan xalqı ayağa qalxdı və genişlənən milli azadlıq hərəkatı kütləvi xarakter alaraq bütün respublikanı bürüdü. Qorxuya düşən imperiya başçıları Azərbaycanı bürümüş qüdrətli xalq hərəkatını yatırmaq üçün noyabrın 24-dən 25-nə keçən gecə Bakıya qoşun yeritdi və komendant saatı tətbiq olundu.

Dekabrın 4-dən 5-nə keçən gecə isə Sovet təhlükəsizlik qüvvələri ordunun köməyilə hərəkatı dağıtmağa nail oldu. Minlərlə azadlıqsevər insan həbs edildi.

Lakin mübarizə əzmi qırılmayan xalq müvəqqəti olaraq meydandan dağıdılsa da geri çəkilmədi və öz sözünü dedi. Azərbaycan yenidən müstəqilliyinə qovuşdu. 17 noyabr isə xalqın milli-azadlıq hərəkatının başlanğıc günü - milli dirçəliş günü kimi mübarizələrlə dolu olan tariximizdə yeni bir səhifə açdı.

Ölkəmizdə hər il həmin gün Milli Dirçəliş Günü kimi qeyd olunur.

# Ölkədə demoqrafik vəziyyət

*Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkə əhalisinin sayı ilin əvvəlindən 57269 nəfər və ya 0,6 faiz artaraq 2017-ci il sentyabr ayının 1-i vəziyyətinə 9867250 nəfərə çatmışdır.*

*Bir kvadratkilometrə 114 nəfər düşən əhalinin ümumi sayının 53 faizini şəhər, 47 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir.*

*Cari ilin yanvar-avqust ayları ərzində ölkədə 95395, yaxud hər gün orta hesabla 393 körpə doğulmuş və əhalinin hər 1000 nəfərinə bu göstərici 14,7 körpə olmuşdur. Doğulan körpələrin 53 faizi oğlan, 47 faizi qız uşaqlarıdır. Onlardan 1712-si əkiz, 33-ü üçəmdir. Doğulan körpələr üçün 75,2, o cümlədən oğlanlar üçün 72,8, qızlar üçün 77,6 yaş ömür uzunluğu gözlənilir.*

*2017-ci ilin 8 ayı ərzində qeydiyyat şöbələri tərəfindən 40256 nikah və 9787 boşanma halları qeydə alınmışdır. Başqa sözlə, hər 1000 nəfərdən 6,2 nəfəri evlənmiş, 1,5 nəfəri isə boşanmışdır.*

*Cari ilin yanvar-avqust ayları ərzində daimi yaşamaq üçün 2080 nəfər Azərbaycana gələn, 1202 nəfər isə Azərbaycandan gedən qeydə alınmışdır. Beləliklə, miqrasiya saldosu müsbət 878 nəfər olmuşdur.*